# Səsvermə günü (22 may) Məntəqə seçki komissiyası katibinin səlahiyyətləri

**Saat 07:00 – 08:00**

- ☐ Seçki məntəqəsi sədrindən seçkilər gününün Qeydlər kitabını, Qeydiyyat jurnalını, səsvermə nəticələrinin yekun protokolunu və nümayiş protokolunu təhvil alın.

---

- ☐ Səsvermə nəticələrinin nümayiş protokolunu seçki məntəqəsində nəzərə çarpan yerdən asın.

---

- ☐ Səsvermə günü Qeydlər kitabının birinci və ikinci səhifələrinə, lakin lazım gəldikdə - 10-cu və sonrakı səhifələrində də seçki məntəqəsinin açılışı zamanı səsvermə binasında olmaq hüququna malik şəxslərin (komissiya üzvlərinin, müşahidəçilərin, nümayəndələrin) adlarını, soyadlarını daxil edin və onlardan xahiş edin ki, səsvermə binasında olmalarını Qeydlər kitabında özimzaları ilə təsdiq etsinlər (Seçki məcəlləsi – maddə 61.2.a).

---

- ☐ Komissiya sədri tərəfindən komissiyanın xüsusi möhürü ilə möhürlənmiş zərfi açdıqdan sonra, qeyd olunan möhürün nömrəsini səsvermə günün Qeydlər kitabının 9-cu səhifəsində qeyd edin.

---

- ☐ Komissiya üzvləri arasında funksiyaların bölüşüdürülməsi üçün püşkatmanın nəticələrini səsvermə gününün Qeydlər kitabının 3-cü səhifəsinə daxil edin (Seçki məcəlləsi –maddə 61.2.v).

---

- ☐ Şikayətlərin qeydə alınması prosesini müşahidə etmək məqsədilə keçirilən püşkatma nəticəsində seçilmiş seçki subyektləri nümayəndələrinin göstəricilərini səsvermə gününün Qeydlər kitabının 3-cü səhifəsinə daxil edin.

---

- ☐ Seçicilərin vahid siyahısında, xüsusi siyahıda və aparılası seçki qutusu siyahısında mövcud olan seçicilərin sayını elan edin və onlar haqqında məlumatı seçkilər günü Qeydlər kitabının 6-cı, və 7-ci (vərəqəsində) və səsvermə nəticələrinin nümayiş protokolunda göstərin (Seçki məcəlləsi –maddə 61.9).

---

- ☐ Götürülmüş seçki bületenlərinin sayını elan edin və seçki gününün Qeydiyyat kitabının 6-cı, 7-ci səhifəsində və səsvermə nəticələrinin nümayiş protokolunda göstərin (Seçki məcəlləsi –maddə 61.9).

---

- ☐ Səsvermə günü Qeydiyyat kitabının 3-cü və 9-cu səhifələrində hər bir seçicinin qeydiyyatçıya verdiyi möhür nömrəsini qeyd edin.

---

- ☐ Seçki qutusunun möhürlənmə vaxtını, seçki qutularının möhürlənməsinin fərdi nömrələrini Qeydlər kitabının 4-cü səhifəsinə daxil edin.

---

- ☐ Səsvermə başlanana qədər komissiyanın sədri ilə birlikdə (birinci seçicinin göstəricilərindən başqa) yoxlama vərəqinin öz surətini çıxartma formasını doldurun. Ona da diqqət yetirin ki, komissiyanın iştirak edən bütün üzvləri yoxlama vərəqəsində imza atsınlar(Seçki məcəlləsi –maddə 61.10).

**Saat 08:00-dan**

- ☐ Seçki məntəqəsinə birinci seçici gələn kimi qeydiyyatdan keçirin, bülleten götürün və bundan sonra birinci seçicinin göstəricilərin yoxlama vərəqinə daxil edin (yoxlama vərəqinin göstəricilərin Qeydlər kitabının 4-cü səhifəsinə daxil edin).

**Saat 09:00-da**

- ☐ Aparılası seçki qutusunun daşıyıcıları olan komissiya üzvlərinə neçə ədəd seçki bülleteni və xüsusi zərf verildiyini Qeydlər kitabının 4-cü səhifəsində qeyd edin. (Seçki məcəlləsi –maddə 62.6 ).

**Saat 12:00-da**

- ☐ Hər bir qeydiyyatçı ilə birlikdə seçicilərin siyahılarında seçkilərdə iştirak edən seçicilərin imzalarının miqdarını yenidən sayın və onların cəmini Qeydlər kitabının 6-cı, 7-ci səhifəsinə, və nümayiş protokoluna daxil edin.

**Saat 17:00**

- ☐ Hər bir qeydiyyatçı ilə birlikdə seçicilərin siyahılarında seçkilərdə iştirak edən seçicilərin imzalarının miqdarını yenidən sayın və onların cəmini Qeydlər kitabının 6-cı, 7-ci səhifəsinə, və nümayiş protokolunaa daxil edin.

**Saat 20:00-a kimi**

- ☐ Seçki məntəqəsinə qayıtdıqdan sonra Aparılası seçki qutusundakı (əgər varsa) istifadə edilməmiş seçki bülletenlərinin və xüsusi zərflərini küncünü kəsin, "korlanmış" sözünü yazın və komissiyanın sədri imzaladıqdan sonra ayrı-ayrılıqda saxlayın, onların sayını qeydlər kitabının 4-cü səhifəsində qeyd edin.

**Saat 20:00-dan –qutunun açılışınadək**

- ☐ Qeydlər kitabının 4-cü səhifəsinə saat 20:00-dək növbədə duran seçicilərin sayını daxil edin.

---

- ☐ Qeydlər kitabının 3-cü səhifəsində komissiya üzvləri arasında sayıcıların funksiyalarının püşkatma yolu ilə bölünməsinin nəticələrini qeyd edin.

---

- ☐ Səsvermə gününün Qeydlər kitabının 3-cü səhifəsinə seçki bülletenlərinin sayılması prosesinə nəzarət məqsədilə müşahidəçilərdən seçilmiş nəzarətçilərin göstəricilərini daxil edin.

---

- ☐ Səsvermə gününün Qeydlər kitabının 3-cü səhifəsinə sayıcılarla birlikdə həqiqi və ya batil bülletenlərin sayılmasında iştirak edən püşkatma nəticəsində seçilmiş səsvermə subyektləri nümayəndələrinin göstəricilərini daxil edin.

---

- ☐ Qeydlər kitabında səslərin sayılması zamanı səsvermə binasında olan şəxslərin kimliyini qeyd edin.

---

- ☐ Seçicilərin vahid siyahısının, xüsusi siyahının və aparılası seçki qutusunun siyahısının əsasında sayıcılar tərəfindən aşkara çıxarılmış səsvermədə iştirak edən seçicilərin ümumi sayını Qeydlər kitabında və nümayiş protokolunda göstərin( Seçki məcəlləsi –maddə 67.3).

---

- ☐ Seçicilərin vahid, xüsusi və aparılası seçki qutusunun siyahısını ayrı-ayrılıqda büküb qablaşdırın və möhürləyin Möhürlənmiş paketlərə komissiyanın sədri və sayıcılar imza atırlar(Seçki məcəlləsi – maddə 67.3).

---

- ☐ **Seçicinin surətinin və təqdim etdiyi sənədlə/sənədlərlə/ seçicinin siyahısında olan fotoşəkilin bir-birinə uyğun olmadığını** və seçki günü qeydiyyat kitabına əlavə olunan sənədlərin sayını qeyd edin. Məlumatları qeydiyyat kitabının 29-cu və sonrakı səhifələrində qeyd edin, bundan sonra qeyd edilən sənədləri möhürləyin. Möhürlənmiş paketə seçki məntəqəsinin adını və nömrəsini qeyd edin, sənədləri imzalayın (Seçki məcəlləsi – maddə $67.5^1$ ).

---

- ☐ İstifadə olunmamış bülletenlərin künclərini kəsin. İstifadə olunmamış və korlanmış seçki bülletenləri ayrı-ayrı paketləşdirin.Möhürlənmiş paketlərə komissiyanın sədri və sayıcılar imza atırlar (Seçki məcəlləsi –maddə 67.4).

**Seçki qutusunun açılması, səsvermə nəticələrinin yekun protokolunun doldurulması**

- ☐ Seçki qutusu açıldıqdan sonra sayıcılar tərəfindən hesablanmış batil bülletenlərin və seçki subyekti tərəfindən toplanmış səslərin miqdarını Qeydlər kitabına və nümayiş protokoluına daxil edin (başqa seçki məntəqəsinə mənsub batil seçki bülletenlərinin miqdarı yalnız Qeydlər kitabında göstərilir) (Seçki məcəlləsi –maddə 69.6.8).

---

- ☐ Komissiyanın sədri ilə birlikdə yekun protokolunu doğruluğunu yoxlayın: subyektlər tərəfindən toplanmış səslərin sayı + batil bülletenlərin sayı = yaxud < imzaların sayı.

---

- ☐ Sayıcılar tərəfindən səslərin proseduru başa çatdırıldıqdan sonra, Məntəqə seçki komissiyasının sədri ilə razılaşaraq, səsvermə nəticələrinin yekun protokolunuı doldurun (Seçki məcəlləsi –maddə 71.1). Səsvermə nəticələrinin yekun protokolunu tərtib edərkən seçicilərin qeydiyyatçıların izahatında göstərilən məlumatlar nəzərə alınmalıdır (olduğu halda) **Yadınızda saxlayın! Yekun protokollarına daxil edilmiş göstəriciləri düzəltmək qadağandır** *(Seçki məcəlləsi – maddə 70.3).*

---

- ☐ Səsvermənin nəticələrinin yekun protokoluna imza atın və diqqət yetirin ki, komissiyanın bütün üzvləri bu protokolları imzalasınlar. Protokolunu komissiyanın möhürü ilə təsdiq edin və Qeydiyyat kitabındaqeydiyyatdan keçirin (Seçki məcəlləsi –maddə 71.4).

---

- ☐ Səsvermənin nəticələri yekunlaşdırıldıqdan sonra Qeydlər kitabını və Qeydiyyat jurnalını müvafiq "Jurnal bağlanmışdır" qeydi ilə bağlayın, sizin və komissiya sədrinin imzası ilə təsdiq edin, bundan sonra isə onları komissiyanın möhürü ilə təsdiq edin (Məntəqə seçki komissiyasının reqlamenti –maddə 11.15; Seçki məcəlləsi –maddə 62.11, 71.12).

**NƏZƏRƏ ALIN!**

- ☐ Komissiya üzvləri arasında püşkatma yolu ilə müəyyən olunmuş funksiyaların başqa üzvə müvəqqəti verildiyi təqdirdə, informasiyanı Qeydlər kitabının 5-ci səhifəsində göstərin (Seçki məcəlləsi –maddə 61.2.z.);
- ☐ Markirovka prosedurundan keçərkən seçicidə aşkar olunsa ki, onda markirovka vardır, onun kimliyinin qeydlər kitabının 4-cü səhifəsinə daxil edin;
- ☐ Qeydiyyat jurnalında və Qeydlər kitabının 10-cu və sonrakı səhifələrində hər bir daxil olan ərizə/şikayəti qeydə alın (Seçki məcəlləsi –maddə 62.9);
- ☐ Yekun protokollarının surətini verərkən surəti Qeydiyyat jurnalında qeydiyyatdan keçirin, onu məntəqə seşki komissiyasının möhürü ilə təsdiq edin və komissiya sədri ilə birlikdə onu imzalayın (Seçki məcəlləsi –maddə 71.8);
- ☐ Səsvermə nəticələrinin yekun protokolunu surətini verərkən onu qəbul edən şəxslər səsvermə gününün Qeydiyyat kitabında imza ilə təsdiq etməlidir.